Korrupsiyaya qarşı mübarizə

Mövzu Əsaslı Tələb

(Topical Requirement)



Tərəfindən tərcümə olunmuşdur

The Institute of Internal Auditors

The Institute of Internal Auditors Azerbaijan

Korrupsiyaya qarşı mübarizə üzrə Mövzu Əsaslı Tələb

Daxili Auditorlar İnstitutunun (“DAİ”) Peşəkar Təcrübələr üzrə Beynəlxalq Çərçivəsi® (International Professional Practices Framework®) Qlobal Daxili Audit Standartları™ (Global Internal Audit Standards™), Mövzu Əsaslı Tələblər və İstifadə üzrə Qlobal Təlimatdan ibarətdir. Mövzu Əsaslı Tələblər məcburi xarakter daşıyır və nəzərdə tutulan tətbiq zamanı əsas və etibarlı mənbə sayılan Standartlarla birlikdə tətbiq edilməlidir.

Mövzu Əsaslı Tələblər müəyyən edilmiş risk sahələrinin auditi üçün minimum baza xəttini müəyyən etməklə daxili auditorlar üçün aydın şəkildə gözləntilər formalaşdırır. Təşkilatın risk profili daxili auditorlardan mövzunun əlavə aspektlərini, o cümlədən yerli tənzimləməyici tələbləri və qanunvericiliyi nəzərə almalarını tələb edə bilər.

Mövzu Əsaslı Tələblərə uyğunluq daxili audit xidmətlərinin icra edilməsində ardıcıllığı artıracaq və daxili audit xidmətlərinin və nəticələrinin keyfiyyətini və etibarlılığını yaxşılaşdıracaq. Nəticədə, Mövzu Əsaslı Tələblər daxili audit peşəsinin nüfuzunu yüksəldir.

Qlobal Daxili Audit Standartlarına uyğun olaraq daxili auditorlar tərəfindən Mövzu Əsaslı Tələblərin tətbiq edilməsi mütləqdir. Mövzu Əsaslı Tələblərə uyğunluq əminlik təminatı xidmətləri üçün məcburi xarakter daşıyır və məsləhət xidmətləri üçün tövsiyə olunur.

Mövzu Əsaslı Tələb aşağıdakılardan biri müvafiq sayıldıqda tətbiq edilir:

- Daxili audit planında audit tapşırığının mövzusuna uyğun olduqda.
- Audit tapşırığının yerinə yetirilməsi zamanı müəyyən edildikdə.
- İlkin daxili audit planında olmayan və sonradan tələb olunan audit tapşırığının mövzusu olduqda.

Hər bir fərdi tələb, hər bir audit tapşırığına aid olmaya bilər və bəzi tələblər digər yanaşmalar vasitəsilə də yerinə yetirilə bilər. Hər hansı bir tələb digər tənzimləyici tələbləri və ya müqavilə öhdəlikləri ilə istisna edildikdə və ya əvəz olunduqda, yaxud Qlobal Daxili Audit Standartlarına uyğun prosedurların tətbiqi ilə həll edildikdə, bunun əsaslandırılmasın sənədləşdirilməsi və saxlanılması mütləqdir. Standartlara uyğunluq keyfiyyət qiymətləndirmələri zamanı təhlil olunmalıdır.

Daha ətraflı məlumat üçün Korrupsiyaya qarşı mübarizə üzrə Mövzu Əsaslı Tələbin İstifadəçi Təlimatına müraciət edin.

©2026 Daxili Auditorlar İnstitutu (“IIA”). Bütün hüquqlar qorunur. Yalnız fərdi istifadə üçündür.

Korrupsiyaya qarşı mübarizə

Korrupsiya, geniş mənada etibar edilmiş səlahiyyətdən şəxsi və ya təşkilati mənfəət üçün sui-istifadə edilməsi kimi başa düşülür və həm dövlət, həm də özəl sektorlarda baş verə bilər. Korrupsiya ilə bağlı davranışlar qərar qəbuletmədə dürüstlüyü, şəffaflığı və ədalətliliyi zəiflədir. Korrupsiyaya qarşı fəaliyyətlər korrupsiya və ya fırıldaqçılıq hallarının qarşısını almaq, aşkar etmək və ya təsirini azaltmaq üçün nəzərdə tutulmuşdur.

Korrupsiya fırıldaqçılığın xüsusi bir növüdür və Korrupsiyaya qarşı mübarizə üzrə Mövzu Əsaslı Tələb fırıldaqçılığı daha geniş mövzu olaraq deyil konkret bu qeyri-etik və qanunsuz davranışlar kontekstində əhatə edir. Təkcə korrupsiyanın maliyyə yükünün qlobal iqtisadiyyata əhəmiyyətli təsir göstərdiyi hesab edilir, bu isə korrupsiyaya qarşı proqramların və güclü nəzarət mexanizmlərinin həyati əhəmiyyətini bir daha vurğulamış olur. Korrupsiya nəinki təşkilatlara, korporasiyalara, dövlət qurumlarına və seçilmiş rəsmilərə olan etimadı zəiflədir, həm də korrupsiyanın baş verdiyi icmalara bərpaolunmaz zərərlər vura bilir.

Hər bir təşkilat, ölçüsündən, fəaliyyət sahəsindən və ya mövcud olduğu yurisdiksiyadan asılı olmayaraq, korrupsiya riskinə məruz qalır. Korrupsiyanın son nəticəsi əsasən təşkilatın fəaliyyət göstərdiyi xarici mühitdən, təşkilatın həmin mühitdə işləmək üçün daxili proseslərini və nəzarət mexanizmlərini necə qurmasından və təşkilat daxilindəki etik mədəniyyətdən asılıdır.

Təşkilatın əməliyyat mühitində korrupsiya risklərini artıran xarici amillər aşağıdakılardır:

- Maliyyə xidmətləri təşkilatlarında və müəyyən peşə sahələrində (məsələn, hüquq, mühasibatlıq, tikinti və daşınmaz əmlak) tənzimləyici və ya fəaliyyət məhdudiyyətlərinin zəif olması.
- Hökumət böhranı və ya qanunların və/və ya tənzimləyici aktların zəif tətbiqi.
- İdarəetmə sistemində adiləşmiş davamlı və sistemli korrupsiya.
- Geosiyasi qeyri-sabitlik.
- Bazar dəyişkənliyi.
- Əsas resursların yalnız bir neçə nəfərin/qrupun nəzarətində olması.
- İnkişaf etməkdə olan bazarlar uğrunda qızğın rəqabət.
- Təbii ehtiyatlardan istifadədə olduğu kimi dövlət və özəl sektorlar arasında əhəmiyyətli qarşılıqlı əlaqənin mövcudluğu.
- Şəffaflığın məhdud olması.
- Üçüncü tərəflərlə yüksək risk daşıyan münasibətlər.

Korrupsiya risklərini azaltmaq üçün müvafiq və adekvat idarəetmə, risklərin idarə edilməsi və daxili nəzarət mexanizmlərini tətbiq etməklə xarici korrupsiya mühitinin təsirini idarə etmək olar. Məhz bu istiqamətdə həm dövlət, həm də özəl sektorlarda fəaliyyət göstərən daxili audit funksiyaları təşkilatlara korrupsiyanın qarşısını almağa, onu aşkarlamağa və təsirini azaltmağa kömək etməklə bağlı kritik rol oynayır.

©2026 Daxili Auditorlar İnstitutu ("IIA"). Bütün hüquqlar qorunur. Yalnız fərdi istifadə üçündür.

Daxili audit funksiyalarının korrupsiyaya qarşı mübarizədə rolu dünyanın bir çox bölgələrində geniş müzakirə olunsa və təşviq edilsə də, bu proses həmişə məcburi xarakter daşımır. Daxili audit təşkilatın yüksək rəhbərliyinin yanaşmasını qiymətləndirmək; korrupsiyaya meylli üçüncü tərəflər və digər biznes prosesləri üzərindəki nəzarəti dəyərləndirmək; göstəriciləri və sapmaları müəyyən etmək; eləcə də nəzarət mexanizmlərinin təşkilatın məqsədlərinə uyğun şəkildə qurulduğu və tətbiq olunduğu üzrə əminlik təminatını vermək baxımından unikal mövqeyə malikdir.

Daxili audit funksiyasının korrupsiyaya qarşı mövzularda əminlik təminatı və məsləhət xidmətlərini qanunvericiliyin qaydalarına, mandatına və audit nizamnaməsinə uyğun olaraq həyata keçirmək üçün kifayət qədər səlahiyyətə malik olması vacibdir. Həmçinin korrupsiyanın texniki bir mövzu olduğunu başa düşmək də vacibdir; buna görə də daxili audit funksiyasının bu sahədə işini yerinə yetirmək üçün zəruri sərişətlərlə kollektiv şəkildə malik olduğuna əmin olunması və ya bu sərişətlərin əldə etməsi mütləqdir. Daxili audit funksiyası və ya ayrıca olaraq daxili auditorların korrupsiyaya qarşı mübarizə proqramı və ya məlumat vermə protokolları kimi elementlərin formalaşmasında rolları olduğu zaman, müvafiq auditorların obyektivliklərini nəzərə alması və zərurət yarandıqda, icra etdikləri əminlik təminatı xidməti üzrə öhdəliklərlə bağlı nəticələrin təsirlənməsinin qarşısını almaq üçün rollarının və qərəzsizliklə bağlı məhdudiyyətlərin müvafiq tərəflərə açıqlaması mütləqdir.

Ən yüksək korrupsiya riskləri

Korrupsiya sxemlərinin sayı və növləri dəyişsə də, beynəlxalq standartlar, sənaye təlimatları və tənzimləyici orqanlar adətən aşağıda göstərilmiş sahələrdəki korrupsiya risklərinə xüsusi diqqət yetirir:

- **Rüşvət və komissiya ödənişləri,** məsələn dövlət məmuruna və ya digər tərəfə, onlara hərəkət etmələri üçün qeyri-qanuni üstünlük təklif etmək və ya rəsmi vəzifələrdən istifadə edərək bir və ya bir neçə üçüncü tərəfin xeyrinə hərəkət etdikdən sonra dəyərli bir aktiv əldə etmək.
- Xüsusi bir namizədə siyasi ianə adı altında gizlədilmiş ödənişlər**,** yaxud rüşvət ödənişlərini gizlətmək məqsədilə korrupsiya vasitəsi kimi xeyriyyə təşkilatına əmlak və ya natural formada köçürmə şəklində verilən **ianələr.**
- **Maraqlar toqquşması,** məsələn şəxsi maraqların peşəkar qərar və ya hərəkətlərə təsir etmə riski yaratdığı vəziyyət.
- **Asanlaşdırma ödənişləri,** məsələn, dövlət məmurlarının rutin və ya inzibati əməliyyatları sürətləndirmək üçün kiçik qeyri-rəsmi rüşvətlərin ödənilməsini istəməsi və ya tələb etməsi.
- **Mühasibat uçotu çatışmazlıqları,** məsələn korrupsiya əməliyyatlarının aşkarlanmamasına şərait yaradan zəif maliyyə nəzarəti, o cümlədən korrupsiya fəaliyyətlərini gizlətmək üçün maliyyə məlumatlarının manipulyasiyası.
- Təşkilatın qeyri-qanuni hərəkətləri təşviq etmək və ya mükafatlandırmaq məqsədi ilə qəbul edilə bilən həddi aşan **hədiyyə və əyləncə faydaları əldə etmə,** məsələn hədiyyə vermək və ya qəbul etmək və ya digər əyləncə formaları.
- **Əlaqəli tərəflərin işə götürülməsi,** məsələn üçüncü tərəfə qeyri-qanuni fayda müqabilində bir şəxsi yarınmaq məqsədi ilə işə götürməsi.

©2026 Daxili Auditorlar İnstitutu ("IIA"). Bütün hüquqlar qorunur. Yalnız fərdi istifadə üçündür.

- **Səyahət sponsorluğu,** məsələn, dövlət məmurlarının rəsmi vəzifələri yerinə yetirərkən səyahət xərclərinin və məsrəflərinin qarşılanması.
- **Sponsorluqlar,** məsələn, təşkilata qeyri-qanuni fayda ödənilməsini gizlətmək məqsədilə, vəd edilmiş vəsaitlərin və ya aktivlərin alıcılarının maskalanması.

Bu sahələr ümumi korrupsiya riskləri olsa da, auditorların dəyişən mühitdə formalaşan korrupsiya vasitələrindən də xəbərdar olması vacibdir. Məsələn, süni intellekt getdikcə daha çox real mesajlar yaratmaq və şəxsləri təqlid etmək üçün istifadə olunur, bu da tələsik qərar qəbul edilməsinə və məxfi məlumatların paylaşılmasına səbəb ola biləcək saxta təcililik hissi yaradır.

Uyğunluq

Bu Mövzu Əsaslı Tələb təşkilatın korrupsiyaya qarşı proqramı və fəaliyyətləri, o cümlədən idarəetmə, risklərin idarə edilməsi və nəzarət prosesləri üzrə əminlik təminatı xidmətləri göstərilməsində daxili auditorun rolunu təyin etmək məqsədi daşıyır. Bu Mövzu Əsaslı Tələb korrupsiya fəaliyyətlərinin araşdırılmasını əhatə etmir.

Təşkilat daxilində rəhbərliyin korrupsiyaya qarşı səylərini düzgün qiymətləndirmək üçün daxili auditorlar təşkilat üçün potensial risklərin nəticələrini başa düşməli və əlavə araşdırma tələb edə biləcək korrupsiya göstəricilərini tanımağı bacarmalıdırlar. Bu Mövzu Əsaslı Tələbə uyğunluq daxili audit funksiyasının təşkilat daxilindəki bütün korrupsiya hallarını aşkar edəcəyinə dair mütləq zəmanət vermir.

Qanunvericilik, dövlət quruluşu və ya siyasi mühit səbəbindən dövlət sektorunda mövcud olan daxili audit fəaliyyətlərindəki məhdudiyyətlər bu işin müəyyən məqamlarının həllinə potensial maneələr kimi tanınır. Dövlət sektorunda fəaliyyət göstərən daxili auditorların risk qiymətləndirmə prosesinin bir hissəsi olaraq əhatə dairəsi üzrə belə məhdudiyyətlərin sənədləşdirməsi və aparılan auditin fərdiləşdirilmiş əhatəsini aydın şəkildə müəyyənləşdirmək və çatdırmaq üçün peşəkar mühakimənin tətbiq etməsi mütləqdir.

Daxili auditorlar, məsələn, dövlət sektorunda bəzi qurumlarda çalışanlar, istintaq səlahiyyətinə malik ola bilərlər və/və ya şübhəli korrupsiya hallarını prokurorlara, baş müfəttişə və ya digər audit orqanına bildirmək məcburiyyətində qala bilərlər. Əgər əminlik təminatı və ya məsləhət xidmətinin göstərilməsi zamanı korrupsiya göstəriciləri aşkar edilərsə, bu öhdəlik fəaliyyətin özü rəsmi istintaq sayılmasa da tətbiq edilir.

©2026 Daxili Auditorlar İnstitutu ("IIA"). Bütün hüquqlar qorunur. Yalnız fərdi istifadə üçündür.

Korrupsiyaya qarşı mübarizə ilə bağlı idarəetmə, risklərin idarə edilməsi və nəzarət proseslərinin qiymətləndirilməsi və yoxlanılması

Bu Mövzu Əsaslı Tələb korrupsiyaya qarşı mübarizə ilə bağlı idarəetmə, risklərin idarə edilməsi və nəzarət proseslərinin quruluşunu və tətbiqini qiymətləndirmək məqsədilə ardıcıl və əhatəli yanaşma təmin edir. Tələblər qiymətləndirmə üçün minimal əsas həddi təqdim edir.

İdarəetmə

Tələblər

Daxili auditorlar tərəfindən təşkilatın korrupsiyaya qarşı mübarizə sahəsində idarəçiliyinin aşağıdakı aspektlərinin qiymətləndirilməsi mütləqdir:

A. Şura və yüksək rəhbərliyin təşkilat daxilində korrupsiyaya qarşı mübarizə aparmağa sadiq olması; bu məqsədlə yüksək rəhbərlik tərəfindən yaradılmış, Şura tərəfindən tanınan və nəzarət edilən, proaktiv və uyğunlaşa bilən elementlərə malik korrupsiyaya qarşı proqramın həyata keçirilməsi. Bu elementlər müvafiq tənzimləyici tələblərə, təşkilati dəyərlərə və risklərin idarə edilməsi strategiyalarına uyğun olaraq yaranan riskləri əhatə edir. Yüksək rəhbərlik aydın təbliğ edilən "yuxarıdan gələn ton" vasitəsilə dürüstlüyü təşviq edir, etik davranışları mükafatlandırır və korrupsiyaya qarşı beynəlxalq və yerli qanunları, eləcə də hökumət və ya təşkilati siyasətlərin icrasını təmin edir. Korrupsiyaya qarşı rəsmi proqram mövcud olmadıqda, korrupsiya risklərini şəffaf şəkildə idarə etmək üçün təlim, hesabat, intizam və monitorinq kimi əsas uyğunluq komponentləri tətbiq edilir.

B. Siyasət və prosedurlar korrupsiyaya qarşı fəaliyyətləri müəyyən etmək və qiymətləndirmək üçün sənədləşdirilir və tərtib edilir. Bu fəaliyyətlər etik davranışı, məlumatverməni və uyğunsuz fəaliyyətlərin aşkarlanmasını və həllini, eləcə də hesabat vermə və intizam tədbirləri üçün digər proqramları əhatə edir. Siyasət və prosedurlar qadağan olunmuş davranışları, məsələn, qeyri-qanuni hədiyyələr, qonaqpərvərlik və ya işə qəbul nəticəsində yaranan maraqlar toqquşmasını müəyyən edir və üçüncü tərəflərlə işləmək üçün qaydalar müəyyənləşdirir. Siyasət və prosedurlar müvafiq tənzimləyici və hüquqi tələblərə uyğundur, mütəmadi olaraq nəzərdən keçirilir və ehtiyac olduqca yenilənir.

C. Təşkilatın korrupsiyaya qarşı idarəetmə rolları və məsuliyyətləri müəyyən edilir. Onlar proqramın idarə edilməsi ilə bağlı rəhbərlik, məsuliyyət və nəzarət öhdəliklərini ətraflı izah edir, o cümlədən narahatlıqları necə və nə vaxt qaldırmaq, araşdırmaq və işçiləri qeyri-adekvat fəaliyyətlərə görə necə məsuliyyətə cəlb etmək barədə ətraflı məlumat verirlər. Siyasətlər və prosedurlar narahatlıqların necə çatdırılmasını və araşdırılmasını tənzimləyir, kimlərin məlumatlandırılmalı olduğunu müəyyən edir və zərurət olduqda məxfi ünsiyyət üsullarını göstərir. Korrupsiyaya qarşı mübarizənin effektivliyinə cavabdeh olan şəxslər korrupsiyaya qarşı mübarizə ilə bağlı kifayət qədər ixtisaslaşmış bacarıq və təlim imkanlarına,

©2026 Daxili Auditorlar İnstitutu ("IIA"). Bütün hüquqlar qorunur. Yalnız fərdi istifadə üçündür.

yüksək vəzifə, səlahiyyət, dəstək, resurslar, müstəqillik səlahiyyətlərinə, eləcə də Şura, yüksək rəhbərlik və hüquq məsləhətçilərinə çıxış imkanlarına malikdirlər.

D. Müvafiq maraqlı tərəflərlə ünsiyyət qurmaq və qərar qəbul etmək üçün protokollar müəyyən edilmiş, şəffaf və beynəlxalq və yerli qanunlarına uyğunlaşdırılmışdır. Protokollar fəaliyyətin, risklərin, uyğunluğun və iddiaların (xüsusilə qanun və/və ya qayda pozuntularının) vəziyyəti barədə mütəmadi hesabat verməyi əhatə edir. Şura və yüksək rəhbərlikdən əlavə, müvafiq maraqlı tərəflərə əməliyyatlar, risklərin idarə edilməsi, komplayens (uyğunluq), hüquq, insan resursları, xarici araşdırmaçılar və təminat verənlər, hüquq-mühafizə orqanları, informasiya təhlükəsizliyi, satınalma, geniş ictimaiyyət, seçilmiş rəsmilər və digərləri daxil ola bilər.

Risklərin İdarə Edilməsi

Tələblər

Daxili auditorlar tərəfindən təşkilatın korrupsiya risklərinin idarə edilməsinin aşağıdakı aspektlərinin qiymətləndirilməsi mütləqdir:

A. Əsas korrupsiya risklərinin fasiləsiz şəkildə müəyyən edilməsi, qiymətləndirilməsi, təhlil olunması və idarə edilməsi prosesləri standartlaşdırılmış və hərtərəflidir. Prosedurlar müəyyən edilmiş rolları və məsuliyyətləri əhatə edir və təşkilata aid əsas korrupsiya risklərini kifayət edəcək dərəcədə nəzərə alır. Risklərin qiymətləndirilməsi yerli qanunvericiliyi və hər hansı tənzimləyici dəyişiklikləri, üçüncü tərəflərin istifadəsini, təşkilatın istehsal edib mübadilə etdiyi mal və xidmətlərin növlərini və ictimaiyyətlə qarşılıqlı əlaqələri nəzərə alır.

B. Risklərin sıralanması və prioritetləşdirilməsi əsasında risklərə cavab tədbirləri adekvat və dəqiqdir. Cavab tədbirləri təsdiqlənir, həyata keçirilir, təhlil olunur, izlənilir, qiymətləndirilir və zərurət olduqda tənzimlənir.

C. Hesabatlılığı təmin etmək məqsədilə yaranan korrupsiya məsələlərini idarə etmək və zərurət olduqda onları yuxarı instansiyalara çatdırmaq üçün proseslər mövcuddur.

Nəzarət Mexanizmləri

Tələblər

Daxili auditorlar tərəfindən təşkilatın korrupsiyaya qarşı mübarizə səyləri ilə bağlı nəzarət proseslərinin aşağıdakı aspektlərinin qiymətləndirilməsi mütləqdir:

A. Təşkilati korrupsiyaya qarşı mübarizə proqramı və/və ya komplayens (uyğunluq) elementləri kifayət qədər resurslarla təmin olunur, davamlı olaraq idarə edilir və birlikdə korrupsiyaya səbəb ola biləcək hərəkətlərin qarşısını alır, aşkar edir və düzəldir.

B. Korrupsiyaya qarşı siyasət və prosedurlar hərtərəfli, təşkilatın risklərinə kifayət qədər uyğunlaşdırılmış və cari risk qiymətləndirmələrinə uyğun olaraq yenilənir. Bu siyasət və prosedurlar aydın, müvaqfiq qaydada kommunikasiya olunmuş və bütün işçilər və müvafiq tərəflər üçün əlçatandır, etik standartlar və təşkilati dəyərlərlə birlikdə təşkilatın gündəlik

©2026 Daxili Auditorlar İnstitutu (“IIA”). Bütün hüquqlar qorunur. Yalnız fərdi istifadə üçündür.

fəaliyyətinə inteqrasiya edilir. Mühüm risklər üzrə tədbir görmək üçün xüsusi siyasətlər və prosedurlar mövcuddur (Baxın: Ən yüksək korrupsiya riskləri, səhifə 3).

C. Təlim və maarifləndirmə proqramları həyata keçirilir, davam etdirillir və bütün işçilər üçün korrupsiyaya qarşı mübarizə üzrə siyasət, prosedur və prosesləri barədə məlumatlılığı artırmaq məqsədilə tələb olunur. Təlimin səviyyəsi və xüsusiyyətləri tutulan vəzifə və öhdəliklər ilə bağlı korrupsiya riskinin səviyyəsinə mütənasibdir.

D. Məlumatvermə proqramları və ya digər xüsusi hesabat mexanizmləri korrupsiya cəhdlərinin qarşısını almaq və onları aşkar etmək üçün icra edilir. Məlumatvermə kanalları müvafiq şəkildə yaradılaraq qorunur, eləcə də məlumatverənlərin müdafiəsi təmin edilir. Məlumatvermə prosedurları beynəlxalq və yerli qanunlara və/və ya qaydalara uyğunlaşdırılır.

E. Üçüncü tərəf münasibətləri üzrə zəruri yoxlama protokolları və nəzarət fəaliyyətləri müəyyən edilir və müvafiq monitorinq aparılır. Üçüncü tərəflərə satıcılar, təchizatçılar, podratçılar, subpodratçılar, kənardan cəlb olunmuş xidmət təminatçıları, digər agentliklər, məsləhətçilər və təşkilat adından fəaliyyət göstərən digər şəxslər daxildir.

F. Təşkilat korrupsiyanı daha asan müəyyən etmək və onun qarşısını almağa kömək etmək üçün yetərli nəzarət tədbirləri tətbiq edir. Nəzarət tədbirləri vəzifə bölgülərinin düzgün aparılmasını təmin etməyi; əməliyyatlar və ya fəaliyyətlər üçün müvafiq təsdiq səviyyələri müəyyən etməyi; tələb olunan sənədləri təhlil etməyi və saxlamağı; eləcə də bəzi əməliyyat növlərinin (məsələn, hədiyyələr, ianələr və sponsorluqlar) qeydiyyatı üçün xüsusi baş hesabların təsis edilməsini əhatə edir. Xüsusilə maliyyə prosesləri üçün təşkilatın maliyyə qeydlərinin və dəstəkləyici sənədlərin ədalətli və düzgün təqdim olunmasını, əməliyyatların isə düzgün qeydə alınmasını təmin etmək məqsədilə daxili nəzarət mexanizmləri tətbiq edilir.

G. Korrupsiyaya meylli əməliyyat prosesləri və nəzarət mexanizmləri davamlı monitorinq və müntəzəm yoxlamalardan keçirilir, həmçinin korrupsiyaya qarşı proqramın elementlərinin nəzərdə tutulduğu kimi işlədiyi, o cümlədən məlumatların etibarlılığının yoxlanıldığı təmin edilir.

H. İnsidentlərə reaksiya, hesabat və bərpa protokolları müəyyən edilir, o cümlədən icra standartları, araşdırma protokolları, hadisənin ciddiyyətinə əsaslanan eskalasiya prosesləri, hadisədən sonrakı təhlillər və əsas (kök) səbəblərin araşdırılması prosesləri yerindədir. Təşkilatlar icra tədbirləri zamanı əldə edilmiş təcrübələri təhlil edir və intizam və düzəldici tədbirlər həyata keçirirlər. İcra tədbirləri ardıcıl tətbiq edilir, qanuni tələblərə riayət olunur və təşkilat daxilində ədalətli və bərabər rəftarı təşviq edir.

I. Gələcəkdə oxşar halların qarşısını almağa və davamlı təkmilləşmə mühitini dəstəkləməyə yönəlmiş məsələn, əldə edilmiş təcrübələr əsasında icra fəaliyyətlərinin təhlilinin aparılması praktikası mövcuddur.

©2026 Daxili Auditorlar İnstitutu (“IIA”). Bütün hüquqlar qorunur. Yalnız fərdi istifadə üçündür.

Daxili Auditorlar İnstitutu haqqında

Daxili Auditorlar İnstitutu (“IIA”), qeyri-kommersiya təşkilatı olaraq dünyanın müxtəlif ölkələrində 265,000-dən artıq üzvünə xidmət göstərən və 220,000 nəfərdən çox şəxsə “Sertifikatlaşdırılmış Daxili Auditor” (Certified Internal Auditor®) sertifikatı təqdim etmiş, daxili auditorların beynəlxalq peşəkar assosiasiyasıdır. Əsası 1941-ci ildə qoyulmuş Daxili Auditorlar İnstitutu (“IIA”), daxili audit sahəsində standartlaşdırma, sertifikatlaşdırma, təlimlərin keçirilməsi, tədqiqatların aparılması və texniki təlimatların hazırlanması ilə bağlı fəaliyyət göstərən lider təşkilat kimi tanınır. Əlavə məlumat almaq üçün www.theiia.org internet səhifəsinə müraciət edə bilərsiniz.

Müəllif hüquqları

© 2026 Daxili Auditorlar İnstitutu (“IIA”). Bütün hüquqlar qorunur. Bu sənədi istənilən formada çoxaltmaq üçün icazənin əldə edilməsi ilə bağlı copyright@theiia.org elektron poçt ünvanı vasitəsilə əlaqə saxlamanız xahiş olunur.

Noyabr 2026

The Institute of Internal Auditors®

Global Headquarters
1035 Greenwood Blvd., Suite 401
Lake Mary, FL 32746 USA
Phone: +1-407-937-1111
Fax: +1-407-937-1101